**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**09.01.2020-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 4**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. 1.2019/2020-ci tədris ilində qış imtahan sessiyasına hazırlığın vəziyyəti barədə fakultə dekanı, professor A.Ə.Ağayevin çıxışı qənaətbəxş hesab edilsin;

2.ATU-nun Yoluxucu xəstəliklər kafedrasının tədris hissə müdiri, dosent İ.Bayramovun kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin.

II.Kafedra müdirlərinə tapşırılsın ki:
1. Sessiya dövründə kafedra əməkdaşlarının əmək intizamına ciddi əməl etməsinə nəzarət gücləndirilsin;
2. Imtahan sessiyası zamanı kafedralarda məsləhət saatlarının təqdim olunmuş cədvələ uyğun fəaliyyətinə nəzarət edilsin;
3.Yaz sessiyası başlayan müddət ərzində kafedranın təcrübəli müəllimlərindən ibarət işçi qrupu yaradılaraq IM-nə təqdim edilən testlərin dürüstlüyünə, iki və ya daha artıq düzgün cavabların və səhvlərin olmamasına baxılaraq araşdırılsın, eləcə də sualların tədris olunan fənnin dərsliyinə uyğun tərtib olunmasına diqqət artırılsın;
4. Yaz imtahan sessiyasının imtahan sualları 01.04.2019-cu il tarixinə qədər IM-nə təqdim edilsin;
5. Növbəti semestr başlayana qədər mühazirə və təcrübə dərslərinin elektron versiyası təkmilləşdirilərək amu.edu.az saytında yerləşdirilsin;

II. Problem Komissiyalarına tapşırılsın ki:
Kafedralarda elmi-tədqiqat işi aparan əməkdaşların illik hesabatları FEŞ-na təqdim olunarkən maksimum 7-10 dəq çıxış üçün nəzərdə tutulsun;

III. Dekanlığa tapşırılsın ki, fakültənin iş fəaliyyətinin yaxşılaşdırılması, tədrisin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi üçün təşkilati və nəzarət funksiyaları gücləndirsin.

Sədr: prof. A.Ə.Ağayev

Elmi katib: t.ü.f.d. Y.H.Hacıyeva